Qəzet 17 iyun 2015-ci il tarixindən nəşr olunur.

# Yeni YOL

15 İYUN
2022-Cİ İL
№ 011 (158)

İCTİMAİ QƏZET ❁ yeniyolqazeti@gmail.com ❁ “იენი იოლი” საზოგადოებრივი გაზეთი ❁ HAQQIN SÖZÜ – SÖZÜN HAQQI

## SALOME ZURABİŞVİLİ HÖKUMƏTİ FƏALİYYƏTSİZLİKDƏ İTTİHAM EDİB



“Avropa Parlamentinin Gürcüstanla bağlı qəbul etdiyi qətnamə radikal müxalifətin davamlı işi, hökumətin susqunluğu və fəaliyyətsizliyinin nəticəsidir”. Bunu Gürcüstan Prezidenti Salome Zurabişvili keçirdiyi brifinqdə deyib.

Onun sözlərinə görə, Avropa Parlementində təmsil olunan partiyalarla lazımı iş aparılmayıb: “Qətnamə ehtimal ki, yalnız qıcıq ifadəsidir və buna görə də cəmiyyətdə çaşqınlıq yaratmaq olmaz. Avropa əleyhinə bəyanatların səsləndirilməsi səhlənkarlıqların ört-basdır edilməsinə cəhddir”.

S.Zurabişvili həmçinin qeyd edib ki, Gürcüstan “Assosiasiyalı trio” ölkələri (Gürcüstan, Ukrayna və Moldova) arasında liderlikdən sonuncu yerə enib.

“Bizim təşəbbüsümüzlə ötən ilin iyulun 19-da Batumidə trionun imzaladığı qətnamə ən mühüm mərhələlərdən biridir. O zaman Gürcüstanın lider olduğu aydın idi. Lakin bir il sonra Gürcüstan qabaqcıl mövqedən sonuncu yerə düşüb”, - deyə Prezident bildirib.

Xatırladaq ki, iyunun 9-da Avropa Parlamentinin Gürcüstanla bağlı qəbul etdiyi qətnamədə medianın vəziyyətinin pisləşməsi, jurnalistlərə qarşı hədə-qorxulardan, zorakılıq və təqib hallarından narahatlıq ifadə olunub. Sənəddə həmçinin hakim “Gürcü Arzusu” Partiyasının təsisçisi, ölkənin keçmiş baş naziri (2012-2013) Bidzina İvanişviliyə sanksiyaların tətbiqinə çağırış da yer alıb.

## AVROPA PARLAMENTİ GÜRCÜSTANLA BAĞLI TƏNQİDİ QƏTNAMƏ QƏBUL EDİB

Avropa Parlamenti Gürcüstanda kütləvi informasiya vasitələri azadlığı və jurnalistlərin təhlükəsizliyinin pozulması ilə bağlı qətnamə qəbul edib.

Parlamentdə təmsil olunan beş siyasi qrupun təşəbbüskarı olduğu sənədi 308 deputat dəstəkləyib, 218-i isə əleyhinə səs verib.

Qətnamədə Gürcüstanda medianın vəziyyətinin pisləşməsi, jurnalistlərə qarşı hədə-qorxulardan, zorakılıq və təqib hallarından narahatlıq ifadə olunub.

Müəlliflər Gürcüstan hakimiyyətini Avropa İttifaqına üzvlük üçün tələb olunan qanunun aliliyi, müstəqil məhkəmə sistemi və KİV azadlığı da daxil olmaqla bütün meyarlara əməl etməyə çağırıb.

Gürcüstanın hakim Gürcü Arzusu Partiyası qətnamənin qəbuluna görə Avropa Parlamentini sərt tənqid edib. Partiya sədri İrakli Kobaxidze bildirib ki, Gürcüstan, Ukrayna və Moldovanın Avropa İttifaqı üzvü olandan sonra fərqli Avropa Parlamentinin olacağına ümid edir. O, qətnamənin Gürcüstan hakimiyyəti üçün heç bir dəyər kəsb etmədiyini vurğulayıb.

## HÖKUMƏT PREZİDENTİN ÜÇ ÖLKƏYƏ SƏFƏRİNƏ İCAZƏ VERMƏYİB

Gürcüstan hökuməti Prezident Salome Zurabişvilinin Polşa, Ukrayna və Fransaya səfərinə icazə verməyib. Bu barədə Brüsseldə işgüzar səfərdə olan dövlət başçısı özü bildirib.

Prezident deyib ki, üç ölkəyə səfərlər çərçivəsində Gürcüstana Avropa İttifaqına üzvlüyə namizəd statusunun verilməsi barədə danışıqlar aparmağı planlaşdırırdı: “Mənə bildirdilər ki, hökumət statusun alınması prosesinin dəstəklənməsi üçün hər şey edib”.

S.Zurabişvili Gürcüstanın Avropadan başqa gələcəyinin olmadığını qeyd edib: “Mən Gürcüstana qayıdıram və bu gələcəyi orada müdafiə edəcəyəm”.

Gürcüstanın Baş naziri İrakli Qaribaşvili məsələyə münasibət bildirib: “Son bir neçə həftə ərzində Prezidentin müxtəlif ölkələrə rəsmi səfərləri ilə bağlı bütün müraciətlərini imzalamışam və onun təmin edilməyən xahişi olmayıb”.

Hökumət başçısı jurnalistlərə açıqlamasında dövlət başçısının destruktiv müxalifətin və ölkənin düşmənlərinin bəyanatlarını təkrarladığına təəssüf etdiyini deyib: “Deyildiyi kimi, əgər hökumət Prezidenti bloklayırsa, o zaman dövlət başçısı Brüsselə necə səfər etdi? Ümid edirəm ki, o, hökumətin işindən daha yaxşı baş çıxaracaq”.

## KORONAVİRUS ƏLEYHİNƏ 4-CÜ DOZANIN VURULMASINA İCAZƏ VERİLİB

Gürcüstanda iyunun 13-dən etibarən vətəndaşların müəyyən qruplarına koronavirus əleyhinə peyvəndin 4-cü dozasının vurulmasına icazə verilib. Bununla bağlı ölkənin səhiyyə nazirinin əmri qüvvəyə minib.

COVID-19-a qarşı ikinci buster dozanı 50 yaş və daha yuxarı, həkim göstərişi əsasında 12-17 yaş qrupuna daxil olan, xəstəliyi təsdiqləyən arayış əsasında 18-49 yaş qrupuna aid şəxslər qəbul edə biləcəklər.

Dördüncü doza tibb müəssisələrində çalışan tibbi heyət üçün də nəzərdə tutulub. 18-49 yaş qrupuna daxil olan şəxslər xaricə səfərlər zamanı da ikinci buster dozanı vurdura bilərlər.

İkinci buster doza birinci buster dozanın vurulmasından ən azı dörd ay sonra qəbul edilməlidir. Bu doza üçün eyni və yaxud digər peyvənd istifadə edilə bilər.

Səh. 2 TƏNQİDƏ GÖRƏ TƏQİB - Azər Musaoğlu yazır
Səh. 4 5 ADDIMDA XARİCDƏ TƏHSİL - Fatimə Ağamalova yazır
Səh. 4 MÜƏLLİMLƏR ÜÇÜN İMTAHANLAR İYULUN 6-SI BAŞLAYIR
Səh. 5 NAŞÜKÜR BƏNDƏLƏR - Esmira Ələkbərli yazır
Səh. 5 QUCAĞINDAKI UŞAĞI OTAQDA AXTARAN ANA - Validə Fətullayeva yazır
Səh. 5 GÖRMƏDİYİMİZ YERLƏRİN CAZİBƏSİ - Elnarə Axverova yazır
Səh. 6 TÜRKDİLLİ XALQLARIN ƏXLAQİ-ESTETİK ALƏMİ - Elizbar Cavelidze
Səh. 7 NİDERLAND – PƏRDƏ ARXASINDAKI GERÇƏKLƏR - Afiq Muxtaroğlu yazır



# TƏNQİDƏ GÖRƏ TƏQİB

Azər MUSAOĞLU
azermusaoghlu@gmail.com

Əgər həqiqəti ancaq pıçıltı ilə danışmaq olarsa, deməli, ölkə düşmənlər tərəfindən əsir götürülüb *(Vilhelm Şvebel – alman publisisti).*

Gürcüstan Konstitusiyasının 17-ci maddəsinə əsasən, fikrin ifadə azadlığı qanunla qorunur, fikrin ifadəsinə görə insanı təqib etmək yolverilməzdir və hər kəs fikir bildirmək azadlığına malikdir. Kütləvi informasiya vasitələri azaddır. Senzura yolverilməzdir. Dövlətin və ya şəxslərin medianı və ya onun yayılması vasitələrini inhisara almaq hüququ yoxdur!!!

Məncə, oxumaq bilən, xüsusilə də təhsil müəssisələrində çalışan hər kəsin bundan xəbəri var, olmalıdır da. Yox, əgər yanılıramsa, o zaman yaxşı olar ki, bu müqəddəs 17-ci maddəni iri şriftlə təhsil müəssisələrinin girişlərində, hətta müəllimlər otaqlarının və bütün siniflərin divarlarından assınlar – Mendeleyevin kimyəvi elementlərin dövr sisteminin cədvəli və ya vurma cədvəli kimi. Bilənlər hər gün təkrarlasın, bilməyənlər isə əzbərləsinlər, bəlkə nicat tapdıq.

Ümumiyyətlə, ölkə Konstitusiyası və Azərbaycan dilinin izahlı lüğəti oxumaq bilən hər kəsin masaüstü kitabı olmalıdır. Onu da qeyd edim ki, Gürcüstanın Konstitusiyası Azərbaycan dilində də var, yəni burada gürcü dilini bilməməyi bəhanə gətirmək yersizdir. Konstitusiyanı başa düşdük deyə bilərsiniz, bəs lüğət nəyə gərəkdir?

Azərbaycan dilinin izahlı lüğətinin niyə masaüstü kitabımız olmasının vacibliyini izah etmək üçün əvvəla lüğətimizdəki iki sözü mənaları ilə burada tirajlayım. Lüğətə əsasən, *tənqid* – yaxşı cəhətlərini üzə çıxarmaq, nöqsanlarını göstərmək və düzəltmək məqsədilə müzakirə, təhlil; *təhqir* isə – heysiyyətini alçaltma, mənliyinə toxunma, şərəfsiz etmə; həqarət deməkdir. Bonus olaraq jurnalistika terminləri lüğətindən bunu da əlavə edim: *tənqidə görə təqib* – yazdığı materiallara, apardığı araşdırmalara, etdiyi çıxışlara və tənqidi rəylərinə görə şəxsin, kütləvi informasiya vasitəsinin (KİV) davamlı təzyiqlərə məruz qalması. Tənqidə görə təqib şəxsin mediaya çıxış, KİV-in yayım imkanlarını daraltmaq, onları gəlirdən məhrum etmək, gözdən salmaq, ictimai qınaq obyektinə çevirmək cəhdlərində özünü göstərir, həmçinin hədələmək, qorxutmaq, fiziki təzyiqə məruz qoymaq, davamlı olaraq məhkəmələrə cəlb etmək, azadlığı məhdudlaşdırmaq və s. formalarda həyata keçirilir.

Məncə, bu qədər yetər, qanana hər şey aydındır.

Xəbəri olmayana isə xatırlatmaq istəyirəm ki, indi 2022-ci ildir, müstəqil ölkədə yaşayırıq, yəni 1937-ci il çox uzaqlarda qalıb, həqiqəti pıçıltı ilə deməyin, danışmağın zamanı deyil. Stalin çoxdan ölüb. Beyinlərinizi bolşevik təfəkküründən, ürəklərinizi repressiya xofundan təmizləyin artıq. İndi hədə-qorxuyla, təqiblə, şantajla, monlajla, zənglə, tapşırmaqla, adam göndərməklə, "partbiletlə", Həsən Ağanın qohumluğuyla iş aşmır. "İndi kosmos əsridir – televizor çvetnoy, xakey, futbol, raketa..." *(ifadə "Yol əhvalatı" filmindəndir)*, informasiya, sosial media dövrüdür və sair, və ilaxır.

Bu gün Ömər Faiqin, Axundovun, Haqverdiyevin, Üzeyir bəyin, Zərdabinin, Sabirin, Mirzə Cəlilin yazdıqları yenə də aktualdırsa yazıq bizim günümüzə. Böyük Zərdabinin dediyi kimi, qəzet aynadır, güzgüdür. Biz bu güzgüyə baxaraq özümüzə çəki-düzən vermək əvəzinə güzgüyə daş atırıq, sındırmağa çalışırıq. Güzgüyə daş atmaqla eyni zamanda öz əksimizi, özümüzü daşlamış oluruq. Öz əksini güzgüdə görüb əksi ilə toqqaşan qoyun kimi. Lətifəsi bizdən uzaq...

## BAŞ NAZİR AVROPA PARLAMENTİNİN QƏTNAMƏSİNƏ MÜNASİBƏT BİLDİRİB



Baş nazir İrakli Qaribaşvili Avropa Parlamentinin deputatlarını məsuliyyətsizlikdə ittiham edib. O, parlamentin Gürcüstanla bağlı qəbul etdiyi qətnaməni gürcü xalqı üçün təhqiramiz olduğunu bildirib.

İ.Qaribaşvilinin sözlərinə görə, qətnamə yalan və qeyri-dəqiq məlumatlarla doludur.

"Təəssüflər olsun ki, Avropa Parlamentinin üzvləri ölkəmizə və vətəndaşlarımıza qarşı tam məsuliyyətsizlik nümayiş etdirdilər", - deyə Baş nazir bildirib.

## AVROPA İTTİFAQI GÜRCÜSTANA YENİ SƏFİR TƏYİN EDİB

Pavel Herçinski Avropa İttifaqının (Aİ) Gürcüstandakı Nümayəndəliyinə rəhbər təyin edilib. Bu barədə Avropa Xarici Fəaliyyət Xidmətindən bildirilib.

P.Herçinski hazırda Aİ Xarici Fəaliyyət Xidmətində departament direktorudur. O, xidmətin Təhlükəsizlik və Müdafiə Siyasəti üzrə direktor vəzifəsində də çalışıb. Bundan öncə Siyasət və Təhlükəsizlik Komitəsində Polşanın səfiri olub.



Qeyd edək ki, P.Herçinski yeni vəzifədə Karl Hartzeli əvəz edəcək. K.Hartzel 2018-ci ilin sentyabrından Aİ-nin Gürcüstandakı səfiridir.

## DAHA BİR MÜXALİF DEPUTAT MANDATDAN MƏHRUM EDİLİB



Gürcüstan parlamentində müxalif Vahid Milli Hərəkat Partiyasını (VMHP) təmsil edən deputat Zaal Udumaşvilinin səlahiyyətləri vaxtından əvvəl dayandırılıb.

Müvafiq qərar qanunverici orqanın plenar iclasında səs çoxluğu ilə qəbul edilib.

Z.Udumaşvili mayın 29-da VMHP-ni tərk etdiyini və mediaya qayıdacağını bildirib.

Qeyd edək ki, Z.Udumaşvili siyasətə qoşulmamışdan öncə telejurnalist və aparıcı kimi tanınıb.

## HƏRBİ XİDMƏT MÜDDƏTİ AZALDILIR

Gürcüstanın müdafiə naziri Cuanşer Burçuladze parlamentdə çıxışı zamanı bildirib ki, hərbi xidmət müddətinin 12 aydan 8 ayadək azaldılması planlaşdırılır.

Nazir deyib ki, bu məqsədlə çağırışçılar üçün Milli Hərbi Xidmətin yaradılması nəzərdə tutulub.

C.Burçuladzenin sözlərinə görə, milli hərbi xidməti yalnız Müdafiə Nazirliyi sistemində keçmək mümkün olacaq. O, xidmət dövründə gənclərin yüksək səviyyədə ilkin döyüş hazırlığı əldə etmək imkanının olacağını vurğulayıb.



Qeyd edək ki, Gürcüstan qanunvericiliyinə əsasən, ölkə vətəndaşı olan 18-27 yaş arasındakı kişilər 12 aylıq həqiqi hərbi xidmət keçməlidirlər.

## GÜRCÜSTANA GİRİŞ ÜÇÜN PCR TESTİ LƏĞV EDİLİB

Gürcüstana daxil olan istənilən xarici ölkə vətəndaşı son 72 saat ərzində aparılan PCR testinin mənfi nəticəsini təqdim etmək öhdəliyindən azad edilib. Bu barədə qərarı Gürcüstan hökuməti qəbul edib.

İyunun 15-dən qüvvəyə minən qərarla vətədaşlığından asılı olmayaraq, bütün əcnəbilərdən Gürcüstana giriş zamanı tam peyvənd kursu haqqında arayış da tələb edilməyəcək.

## TÜRKİYƏ SƏFİRİ: "TÜRKİYƏ, GÜRCÜSTAN VƏ AZƏRBAYCAN MARAQLARI ÜST-ÜSTƏ DÜŞƏN ÜÇ ÖLKƏDİR"

"Türkiyə, Gürcüstan və Azərbaycan maraqları, regiona və dünyaya baxışları üst-üstə düşən üç ölkədir. Biz gələcəkdə üç ölkə arasında əlaqələrin güclənməsini istəyirik və dəstəkləyirik". Bunu Türkiyənin Gürcüstandakı səfiri Fatma Ceren Yazqan "Kviris Palitra" qəzetinə müsahibəsində deyib.



Onun sözlərinə görə, Türkiyə və Gürcüstan Azərbaycan və Ermənistanı cəlb etməklə bölgəni müharibə və problemlər baxımından deyil, mədəniyyət, incəsənət, turizm baxımından inkişaf etdirə bilər.

Səfir Türkiyənin Gürcüstanın NATO-ya üzvlüyünü dəstəklədiyini qeyd edib: "Bu o deməkdir ki, biz Gürcüstanı müttəfiq hesab edirik. Eyni zamanda, biz hesab edirik ki, Gürcüstan regionda sabitlik və sülhün bərqərar olmasında da mühüm rol oynamalıdır".

## TÜRKİYƏNİN VƏ GÜRCÜSTANIN MÜDAFİƏ NAZİRLƏRİ BRÜSSELDƏ GÖRÜŞÜBLƏR

Gürcüstanın müdafiə naziri Cuanşer Burçuladze Brüsseldə Türkiyənin milli müdafiə naziri Hulusi Akarla görüşüb. Bu barədə Gürcüstanın Milli Müdafiə Nazirliyi məlumat yayıb.



Məlumatda bildirib ki, NATO-ya üzv ölkələrin müdafiə nazirlərinin iclası çərçivəsində keçirilən görüşdə iki ölkə arasında müdafiə sahəsində əməkdaşlığın inkişaf perspektivləri müzakirə olunub.

Görüşdə Qara dəniz, eləcə də Cənubi Qafqaz regionlarında təhlükəsizlik, sülh və sabitlik məsələləri də diqqət mərkəzində olub.

C.Burçuladze Gürcüstanın Müdafiə Qüvvələrində həyata keçirilən islahatlar barədə türkiyəli həmkarına məlumat verib, Türkiyənin hərbi təhsil sahəsində göstərdiyi dəstəyə görə minnətdarlıq edib.

## CUANŞER BURÇULADZE: "GÜRCÜSTAN-AZƏRBAYCAN-TÜRKİYƏ ÜÇTƏRƏFLİ ƏMƏKDAŞLIĞI GÜCLƏNİB"

"Gürcüstan-Azərbaycan-Türkiyə üçtərəfli formatda əməkdaşlıq güclənib". Bunu Gürcüstanın müdafiə naziri Cuanşer Burçuladze parlamentdə illik hesabatla çıxışı zamanı deyib.



Tərəfdaş ölkələrlə əməkdaşlıq istiqamətlərindən danışan nazirin sözlərinə görə, bu əlaqələr Böyük Britaniya, Fransa, Almaniya, Baltikyanı ölkələr, Skandinaviya ölkələri və Qara dəniz regionu ilə daha da gücləndirilib.

C.Burçuladze Türkiyənin Gürcüstanın Müdafiə Qüvvələrinin dəstəklənməsinə yönələn səylərini də qeyd edib.

Nazir Gürcüstanın və ölkənin Müdafiə Qüvvələrinə səmərəli və sarsılmaz dəstəyinə görə ABŞ-a təşəkkürünü bildirib.

## İCMA MƏRKƏZLƏRİNƏ AZƏRBAYCAN DİLİNDƏ KİTABLAR VERİLİB

Azərbaycanın Gürcüstandakı səfirliyi Gürcüstanın azərbaycanlı icmasına ana dilində kitablar təqdim edib. Mədəniyyət Nazirliyinin göndərdiyi Azərbaycan və dünya ədəbiyyatına aid 3 minə yaxın vəsait gənclər təşkilatları və icma mərkəzləri üçün nəzərdə tutulub.



Tbilisidə Mirzə Fətəli Axundzadə adına Azərbaycan Mədəniyyəti Muzeyində baş tutan təqdimetmə mərasimində çıxış edən Azərbaycanın Gürcüstandakı səfiri Faiq Quliyev bildirib ki, layihə azərbaycanlı icmanın təşəbbüsü əsasında həyata keçirilib.

Onun sözlərinə görə, səfirlik vacib təşəbbüsü rəğbətlə qarşılayaraq nəzərə alıb: "İcmanın kitablarla təmin olunması məsələsini gündəmə gətirən ictimai fəal Samirə Bayramova və digər gənclərə təşəkkür edirəm. Səfirlik bu cür layihələrin reallaşdırılmasına gələcəkdə də dəstək verməyə hazırdır".

F.Quliyev icma təşkilatları arasında kitabların mübadiləsinin təşkilinin vacibliyini qeyd edib. İcma nümayəndələri təşəbbüsə və dəstəyə görə təşəkkürlərini bildiriblər.

Qeyd edək ki, Azərbaycan səfirliyi Gürcüstandakı azərbaycanlı icmanı artıq növbəti dəfədir kitablarla təmin edir. Belə ki, ötən ilin oktyabrında diplomatik nümayəndəliyimiz Marneuli və Qardabanidə fəaliyyət göstərən icma mərkəzlərinə 1 430 ədəd kitab hədiyyə edib.

Ana dilində kitab çatışmazlığı məsələsi Azərbaycanın mədəniyyət naziri Anar Kərimovun ötən ilin iyulunda Gürcüstana səfəri çərçivəsində azərbaycanlı icmanın nümayəndələri ilə keçirdiyi görüşdə qaldırılıb.

## GÜRCÜSTANIN XARİCİ İŞLƏR NAZİRİNİN BİRİNCİ MÜAVİNİ AZƏRBAYCAN SƏFİRİ İLƏ GÖRÜŞÜB



Gürcüstanın xarici işlər nazirinin birinci müavini Laşa Darsalia Azərbaycanın Gürcüstandakı səfiri Faiq Quliyevlə görüşüb.

Tərəflər Gürcüstan və Azərbaycan arasında ikitərəfli əməkdaşlığın gündəliyində duran cari məsələləri və münasibətlərin gələcək inkişaf perspektivlərini müzakirə ediblər. Yüksək səviyyəli qarşılıqlı səfərlərin mübadiləsinin vacibliyi qeyd olunub.

Görüşdə iki ölkə arasında diplomatik əlaqələrin qurulmasının 30-cu ildönümü ilə bağlı müvafiq tədbirlərin təşkilinə hazırlıq ifadə olunub.

Sonda tərəflər Gürcüstan və Azərbaycan arasında strateji tərəfdaşlığın daha da dərinləşdirilməsinə hazırlıqlarını bir daha təsdiqləyiblər.

## UNESKO KAXETİ BÖLGƏSİNDƏ YERLƏŞƏN İKİ ƏRAZİYƏ XÜSUSİ QORUQ STATUSU VERİB

UNESCO-nun qərarı ilə Gürcüstanın Kaxeti bölgəsində yerləşən iki – Dedoplistskaro və Üç Alazani qorunan ərazilərinə biosfer qoruq statusu təqdim edilib. Bu barədə Gürcüstanın Ətraf Mühitin Mühafizəsi və Kənd Təsərrüfatı Nazirliyindən bildirilib.

Təşkilatın "İnsan və biosfer" proqramı Beynəlxalq Əlaqələndirmə Şurasının Parisdə keçirilən 34-cü sessiyasında qəbul olunan qərarla həmin ərazilər Biosfer Qoruqlarının Dünya Şəbəkəsinə daxil edilib.

Nazirlikdən qeyd olunub ki, bu günədək Cənubi Qafqazda heç bir ərazi biosfer qoruq statusuna malik olmayıb. Dedoplistskaro və Üç Alazani biosfer qoruqları regionda ilk presedentlərdir.

Gürcüstanda biosfer qoruğun yaradılması və inkişafı potensialı 2015-ci ildən araşdırılır. Bu cür qoruğun yaradılması üçün Kaxeti bölgəsinə üstünlük verilib.

Qeyd edək ki, biosfer qoruqlar bioloji müxtəlifliyin qorunması və təbiətdən davamlı istifadə maraqları naminə insan və təbiətin harmonik qarşılıqlı əlaqəsini təşviq etmək üçün nəzərdə tutulub.

## AZƏRBAYCANIN MƏDƏNİYYƏT NAZİRLİYİ GÜRCÜSTANIN AZƏRBAYCANLI İCMASINA MİLLİ RƏQS GEYİMLƏRİ HƏDİYYƏ EDİB

Azərbaycanın Mədəniyyət Nazirliyi Gürcüstanın azərbaycanlı icması üçün milli rəqs geyimləri göndərib.



Azərbaycanın Gürcüstandakı səfirliyi 40 dəst kişi və qadın milli paltarlarını Gürcüstanda fəaliyyət göstərən "Ceyran" və "Sarvan" ansambılları, rəqs dərnəklərinin olduğu "Çay Evi" mərkəzi və "Yeni Düşüncə İnstitutu" təşkilatına təhvil verib.

Təqdimetmə mərasimində çıxış edən səfir Faiq Quliyev bildirib ki, geyim formaları icmanın müraciəti əsasında Gürcüstana göndərilib. O, Azərbaycanın Mədəniyyət naziri Anar Kərimova minnətdarlığını bildirib.

Səfirin sözlərinə görə, icmanın müraciətində 100 dəst rəqs paltarı xahiş olunub və yerdə qalan dəstlərin növbəti aylarda əldə olunacağı gözlənilir. Səfir gələcəkdə azərbaycanlı icmaya bu cür dəstək tədbirlərinin davam etdiriləcəyini vurğulayıb.

F.Quliyev qeyd edib ki, Gürcüstanda yaşayan soydaşlarımızın sosial-humanitar sahədə tam dəstəklənməsi Azərbaycan dövləti və səfirlik üçün əsas prioritet istiqamətlərdən biridir, onları narahat edən məsələlər daima diqqət mərkəzində saxlanılır.

"Ceyran" ansamblının bədii rəhbəri Ceyran Qurbanova, "Sarvan" ansamblının rəhbəri Cəmilə Sarvanqızı, "Çay Evi"nin meneceri Emin Əhmədov və "Yeni Düşüncə İnstitutu"nun təsisçisi Ariz Daşdəmirli dəyərli hədiyyəyə görə Azərbaycan dövləti və səfirliyə təşəkkürlərini bildiriblər.

# 5 ADDIMDA XARİCDƏ TƏHSİL



Araşdırsaq görərik ki, indiki halda ölkədəki təxminən 10 gəncdən 8-i xaricdə təhsil almaq arzusundadır. Ancaq təkcə arzulamaqla bütün istəklərimizə nail olsaydıq hər şey çox asan olardı. Təəssüf ki, bu, belə deyil. Bəs bunu necə asanlaşdıraq? – deyirsinizsə əvvəlcə bu arzunuzu məqsədə çevirməkdən başlamalısınız. Arzu ilə məqsəd arasındakı əsas fərq də budur ki, biz məqsədlərimiz üçün çalışırıq, arzuları isə sadəcə istəyirik.

**Bəs xaricdə təhsil almaq üçün çalışmağa haradan və necə başlayaq?**

Erkən qalxan erkən yol alar. Siz əgər xaricdə təhsil almaq istəyirsinizsə, bunun üçün hazırlıqlara ən azı 1 il əvvəldən başlamalısınız. Məsələn, əgər siz 2022-ci ilin sentyabrında təhsilinizə xaricdə başlamaq istəyirsinizsə, bilməlisiniz ki, xarici universitetlərə müraciətlər artıq 2021-ci ilin sentyabr ayından etibarən başlayır və hər ölkənin və hətta ölkələrdəki universitetlərin də hər birinin özünəməxsus müraciət tarixləri olur.

Bu o deməkdir ki, siz əslində sadəcə müraciətlərə bir il əvvəldən başlayırsınız, prosesə hazır olmaq üçünsə siz çox dəqiq olmalısınız və artıq əlinizdə müəyyən detallar olmalıdır. Bunları etmək üçünsə sizə əlavə müəyyən vaxt (ən azı əlavə 6 ay) lazımdır, əgər bütün bunları necə edək deyirsinizsə –axtaran tapar. Bəli, axtaran tapar, ancaq indiki dövrdə deməzdim ki, hər axtaran öz axtardığını tapır. Tapmaq üçün əvvəlcə nə axtardığımızı bilməliyik, düzdürmü?

**Miflərə inanmayın:**

• Pulunuz yoxdursa xaricdə təhsil ala bilməzsiniz;

• Əsas yüksək "IELTS" almaqdır və daha nələr, nələr...

Tanış gəldi elə deyilmi? Bəli, bu günə qədər eşitdiyiniz bu ifadələr çox hallarda mifdən başqa bir şey deyil. Bu miflərlə bağlı əslində olan nədir?

**Əslində olan:**

1. Pulunuz yoxdursa siz təhsilinizə, bacarıqlarınıza güvənməli, onların üzlərində işləməlisiniz ki, təqaüdlə təhsil ala biləsiniz.

2. Ümumiyyətlə, "IELTS"in qoyulan tələbdən yüksək olması çox nadir hallarda sizin qəbul nəticənizə təsir edir. Yaxşı qəbul üçün sizin güclü CV-niz, təhsil və təcrübə "backgroun"dunuz olmalıdır.

3. Burada bir çox məqam rol oynayır, məsələn, sizin yazı bacarıqlarınız, yəni motivasiya məktubunuz, iş, könüllülük təcrübəniz, təşəbbüskarlığınız və s.

**Bəs siz xaricdə təhsil üçün hansı addımları atmısınız?**

*Tələblər üçün xaricdə təcrübəyə aparan yollar:*

*Beynəlxalq konfranslar.* Adətən könüllü təşkilatlarda və universitetlərdə fəal olan gənclər bu tip konfranslara dəvət ala bilirlər. Özünüz müxtəlif sosial şəbəkələr və quql vasitəsilə də tapa bilərsiniz.

*Erasmus + layihələr.* Layihələr adətən qısa müddətli 1-2 həftə olur, buna görə də tələbə ikən tətil günlərində belə layihələrdə iştirak edə bilərsiniz.

**5 qısa məsləhət:**

• İngilis dilini öyrənin;

• Könüllü olun (Burada qazanacağınız dəyərlər və təcrübə sizə çox kömək edəcək);

• Minimal büdcəniz olsa belə yenə də pul yığmağa çalışın;

• Ətrafınızı genişləndirin, ancaq tanış olmaq istədiyiniz insanların sizə nə qataçağından əvvəl, "özünüz onlara nə verə bilərsiniz?" sualına cavab tapın;

• Verdiyiniz hər qərarı necə edəcəyinizi düşünmədən əvvəl niyə etdiyinizi yaxşıca sorğulayın.

**Özünüzə sual verin:**

– İstədiyim adam olmaq üçün bu gün nə edirəm?

– Biz bugünkü seçimlərdən ibarətik. Ona görə də bir davranışı seçəndə sadəcə özünüzə sual verin ki, bu davranış mənim olmaq istədiyim adamı əks etdirirmi?

Ancaq təbii ki, burada seçim sizindir.

**Fatimə Ağamalova**

*Kalinin ictimai məktəbinin 11-ci sinif şagirdi*

## VAHİD MİLLİ İMTAHANLAR İYULUN 4-DƏ BAŞLAYIR



2022-ci ilin milli imtahanları iyulun 4-ü başlayacaq. Abituriyentlər üçün ilk imtahan gürcü dili və ədəbiyyatı olacaq. Bu barədə təhsil və elm nazirinin müavini Nunu Mitskeviç keçirdiyi brifinqdə bildirib.

*"Həmçinin, aydın olub ki, abituriyentlərə imtahan aparılan zaman maska taxmaq lazım olmayacaq.*

*Koronavirus təsdiqlənənlər və səhiyyə bazasında qeydiyyatda olanlar üçün ayrıca imtahan təşkil olunacaq. Onlar imtahan verə biləcələr",* - deyə N.Mitskeviç qeyd edib.

**2022-ci ilin vahid milli imtahanlarının qrafiki aşağıdakı kimidir:**

**Gürcü dili və ədəbiyyatı:**

4 iyul (birinci və ikinci sessiya);
5 iyul (birinci və ikinci sessiya);
6 iyul (birinci sessiya);
4 iyul (birinci sessiya) – osetin dili.

**Riyaziyyat:**

8 iyul (birinci və ikinci sessiya).

**Xarici dil:**

11 iyul (birinci və ikinci sessiya) – ingilis dili;
12 iyul (birinci və ikinci sessiya) – ingilis dili;
13 iyul (birinci sessiya) – ingilis dili;
13 iyul (ikinci sessiya) – rus dili;
13 iyul (ikinci sessiya) – fransız dili;
13 iyul (ikinci sessiya) – alman dili.

**Fizika:**

14 iyul (ikinci sessiya).

**Ədəbiyyat:**

14 iyul (ikinci sessiya).

**Kimya:**

15 iyul (ikinci sessiya).

Tətbiqi və təsviri incəsənət:

15 iyul (ikinci sessiya).

**Tarix:**

18 iyul (birinci və ikinci sessiya);
19 iyul (birinci sessiya).

**Ümumi qabiliyyət:**

19 iyul (ikinci sessiya).

**Biologiya:**

20 iyul (ikinci sessiya).

**Coğrafiya:**

21 iyul (ikinci sessiya).

**Vətəndaş təhsili:**

22 iyul (birinci sessiya)

## MÜƏLLİMLƏR ÜÇÜN İMTAHANLAR İYULUN 6-SI BAŞLAYIR

Qiymətləndirmə və İmtahanlar üzrə Milli Mərkəzin rəhbəri Sopio Qorqodze müəllimləri, müəllim olmaq istəyənləri və xüsusi müəllimləri 2022-ci ilin imtahan qrafiki ilə tanış edib:

• *Milli imtahanlar 4 iyulda başlayacaq və 22 iyulda bitəcək;*

• *Müəllimlər üçün imtahanlar iyulun 6-dan 25-nə kimi keçiriləcək;*

• *Magistratura imtahanları iyulun 26-dan 27-nə kimi;*

• *Tələbələr üçün qrant imtahanları isə 6 iyulda keçiriləcək.*

**Fənn, peşə qabiliyyəti və xüsusi baş müəllimlər üçün imtahanların qrafiki aşağıdakı kimidir:**

**6 iyul (ikinci sessiya):**

– Xüsusi baş müəllimlər üçün imtahan.

**7 iyul (birinci sessiya):**

– Gürcü dili və ədəbiyyatı, riyaziyyat və təbiətşünaslıq (I-IV);
– Təbiətşünaslıq (başlanğıc pillə (I-IV));
– Gürcü dili və ədəbiyyatı (başlanğıc pillə (I-IV)).

**7 iyul (ikinci sessiya):**

– Riyaziyyat (başlanğıc pillə (I-IV));
– Musiqi;
– Vətəndaş təhsili (baza və ya orta pillə).

**14 və 15 iyul (birinci sessiya):**

– Aparıcı və mentor müəllim olmaq istəyənlər üçün peşə qabiliyyəti imtahanı.

**14 iyul (ikinci sessiya):**

– Biologiya (baza və ya orta pillə).

**15 iyul (ikinci sessiya):**

– Coğrafiya (baza və ya orta pillə);
– Azərbaycan dili.

**19 iyul (ikinci sessiya):**

– Kimya (baza və ya orta pillə).

**20 iyul (birinci sessiya):**

– Gürcü dili və ədəbiyyatı (baza və ya orta pillə);
– Riyaziyyat (baza və ya orta pillə);
– Erməni dili.

**21 iyul (birinci sessiya):**

– Tarix (baza və ya orta pillə);
– Tətbiqi və təsviri incəsənət;
– İdman;
– Fizika (baza və ya orta pillə).

**22 iyul (birinci sessiya):**

– İngilis dili (başlanğıc, baza və ya orta pillə) – yazı hissəsi;
– Alman dili (başlanğıc, baza və ya orta pillə) – yazı hissəsi;
– Fransız dili (başlanğıc, baza və ya orta pillə) – yazı hissəsi;
– Rus dili (başlanğıc, baza və ya orta pillə) – yazı hissəsi;
– Gürcü dili ikinci dil kimi (başlanğıc, baza və ya orta pillə) – yazı hissəsi;
– İnformasiya və kommunikasiya texnologiyaları – yazı hissəsi.

**24 iyul:**

– İnformasiya və kommunikasiya texnologiyaları – praktik hissə;

**25 iyul:**

– İngilis dili (başlanğıc, baza və ya orta pillə) – praktik hissə;
– Alman dili (başlanğıc, baza və ya orta pillə) – praktik hissə;
– Fransız dili (başlanğıc, baza və ya orta pillə) – praktik hissə;
– Rus dili (başlanğıc, baza və ya orta pillə) – praktik hissə;
– Gürcü dili ikinci dil kimi (başlanğıc, baza və ya orta pillə) – praktik hissə;
– İnformasiya və kommunikasiya texnologiyaları – praktik hissə.

*Səhifədəki məlumatlar "etaloni.ge" saytından götürülüb. Gürcü dilindən tərcümə etdi:*

**Aynurə ƏLİYEVA**

# NAŞÜKÜR BƏNDƏLƏR



Təzə ailə qurmuşduq, Bakıda kirayədə yaşayırdıq. Heç bir çətinlik görməyən bir ərköyün qızın kirayə həyatı mənən sıxıntılı olsa da anam bunu hiss edib nəsihətini verdi: "Adam o vaxt özünü xoşbəxt hiss edər ki, özündən aşağılara baxar. Sən yuxarılarla bəhsə girsən heç vaxt xoşbəxt olmazsan". Sonra anam ortaq tanıdığımız qohum, tanış qızlarını misal gətirdi. Onlarla mənim həyatımı elə müqayisə etdi ki, gördüm əməllicə bəxtəvər imişəm.

Bax, həqiqət budur ki, biz özümüzdə olan yaxşıları görmədən başqalarının yorğanının uzunluğunu ölçürük. Mən uşaqlarıma balaca vaxtından qablarındakı yeməyi sona qədər yeməyəndə deyərdim ki, bala, bax, Somalidə uşaqlar bu tikəni tapmırlar, şükr edək ki, bizim var. Zibilə atmaq günahdır. Allah verməyə də bilər. Bu yolla gözütoxluğu aşılaya bildim. Amma mühit daha çox tərbiyə verir, nəinki valideyn, nəinki gen. Zəmanədən şikayət edənlərdən heç şükr deyəni görmədim, heç...

Niyə biz mütləq maddi imkanımızın daha çox olmağını istəyirik. Evimiz var, yeməyə çörəyimiz var, az-çox bizi dolandıracaq aylıq gəlirimiz var, əsas sağlamlığımız yerindəsə məgər bu yaşam üçün kifayət deyilmi? Niyə daha da çox üçün evindən, ailəndən, doğmalardan uzaqlaşmalısan.

Elələri var, ömrü boyu qərib diyarlarda gün keçirir, heç o qurub-yaratdıqları mülklərdə doyunca oturmadan qocalır, dünyadan köçür. Axı insan ömrü o qədər qısa ki, onun keçdiyi zamanı yalnız karvan sona çatanda hiss edirsən. Odur ki, biz olanlarımızla niyə razılaşmayaq?

Hamı bahalıqdan, yaşayışdan, çətinlikdən şikayət edir. Məəttələm, kimsəni filankəslərlə müqayisədə olanlarımızdan danışan qəti görmədim. Maşallah, ərzaq mağazaları dolub-boşalır. Hələ görmədim ki, hansısa iflas edib bağlansın. Geyim dükanları, yarmarkalar, pərakəndə satışlar bir yana, onlayn satışlar belə dayanmır. Telefon dükanları dayanmadan yeni modellərlə bəhsəbəhsdədir. Texniki vasitələr – paltaryuyandan qabyuyana qədər avadanlıqlar daim müştəri seçimində. Bəs kimdir bu acından ölənlər?

Maddi sıxıntı içində olanlar bizik, yoxsa o Somalidə həqiqətən çörəyə həsrətlilər, qaçqınlar, köçkünlər... Day qaçqın da deyəndə bizimkilər kimi qaçqın statusuyla xariqələr yaradanlar yox, o boynubükük suriyalı uşağın, "Allaha şikayət edəcəm" deyən körpənin fəryadına baxıb niyə olanlarımızın varlığına şükr demirik?!

İnanın səmimiyyətimə, mən qətiyyən varlı adam deyiləm. Özümü mənəvi aristokrat sayıram. Özümün daxili zənginliyimlə fəxr edirəm. Yaxşı tələbə dostlarım var, Bakıdan Avropa ölkələrinə qədər yaşayanlar var, hamısının da kasıbı mənəm. Nə zinət əşyalarım, nə mülklərim, nə dollarlarım var. Əli-ayağı düz iki balam, səmimiyyətə, sevgiyə bağlı ailəm, yaxşı dostlarım, işim, yeməyə yeməyim, başımı salacağım daxmam var. Nə gözəl! Bundan o yana nə istərəm. Şükr olsun! Allah olanlarımı ailəmə çox görməsin, bəsimdir.

Bu insan xislətimi, yoxsa bizim milli öhdəliyimizmi, bilmirəm.

Bəziləri sabaha maddiyyət yığmaq üçün dəridən-qabıqdan çıxdığı halda, bəziləri də onun sərvətini hesablayır. Biri çabalayaraq bəzən nəticəyə çatana qədər, digəri ömrünü başqalarına bəxtəvər verməklə başa vurur. Həyatın təzadı budur.

Vallah, anladığım qədər digər millətlər bizim qədər sərvətpərəst deyil. Şükrlüdür. Əlbəttə, mən qızıl nimçədə yeyən xəstə təfəkkürlülərdən yox, sıravi insanlardan danışıram.

Bakıda iki qonşumuz vardı: rus və azərbaycanlı. Hər ikisi tənha yaşayırdılar. Azərbaycanlı övladı olmadığına görə ayrılmışdı, rus tarixcəsini bilmədiyim bir qoca arvad idi. Onun gəncliyini görən qocalar deyirdilər ki, bir oğlu varmış, o da deyəsən Rusiyaya gedib. Özü isə müsahib işləyirmiş. Zamanına görə əsl rus müstəqiliyini yaşayıbmış. Azərbaycanlı qadın isə məktəbdə təmizləyici işləyirdi. Az maaşı olduğundan gecələr evdə şirniyyat, peroşki bişirib məktəbin bufetinə verərdi. Bu yolla maaşıyla dolanar, əlavə gəliri ilə də evini illərdi təmir etdirirdi, mebel alırdı, qohumlara pay-puş çıxardı. Həmişə də pul çatdıra bilmirəm deyirdi. Tətil günlərini də özəl təmizlik işləri görürdü. Heç pensiya yaşına çatmadı deyəsən, 60 yaşı olmamış ürək çatışmazlığından həyatdan köçdü. Rus qadın da öldü, qocalıq xəstəsi idi, qonşular növbəylə hər gün biri baş çəkir, yemək aparardılar. Düzdür, sosial şöbədən nəzarətdə və qulluqda idilər. Bir gün nənəmlə mən də getdim. Evə girəndə sanki film kadrı idi – rus filmlərindəki kimi. Sovet vaxtının təmiri – sadə divar kağızı, rəngi getmiş pəncərə çərçivələri, linoleum döşəmə, otaqda antik dolab, ipək pərdə, dəbdə olmayan qab-qacaq...

Dəmir çarpayıda uzanmışdı, üzü qırış içində, amma gözləri parıldayırdı. Yaşamaq həvəsi vardı o gözlərdə. Rus qadın öləndə nənəm qonşulara dedi ki, vallah, belə baxıram Gülsüm də yaşadı, İra da yaşadı, hər ikisinin də sonu bir oldu, amma biri zülmlə, o biri adam kimi yaşadı.

Dünyanın bərkini-boşunu dərk etmək məcburiyyətində olmayan gənc bir qız dərindən təhlil etməsə də bugünkü yaddaşla və həyata təcrübənin pəncərəsindən baxanda görürəm ki, nənəm deyibmiş deyəcəyini. Gülsüm nənə həyatını çətinliklərlə yaşadı, daim həyatdan narazı oldu, qənaətlə yaşadı, halbuki, istəsə sıravi dolana bilərdi. Əlavə işlər işlədi. Ürəyi istəyənləri almadı, yemədi, geyinmədi, artırdığını təmirə verdi, təzə soyuducu, qaz piltəsi və s. aldı. Təzəcə şükr deyə biləcək vəziyyətə gəlirdi ki, yüklənmiş ürək dözmədi, "heç olmasa pensiya alsaydım" deyə-deyə onu da görmədi. İra nənə isə zamanında istədiyi kimi yaşayıb, geyinib, heç vaxt nə dərindən ev təmir etdirib, nə artıq bir dəsmal alıb, nə də mebel. Elə anadan qalma antik dolablardan istifadə edibmiş. 85 yaşında bir neçə gün balkona çıxmadı deyə qonşular kimsəsiz qadın kimi nəzarətə götürdülər. Nəhayət son.

İki müqayisəli həyat təzadı. Mən demirəm İra həyatı yaşayaq, amma evdə mebel varsa beş il sonra dəyişməliyəm deyib artıq xərc çəkməkdənsə il ərzində istirahətə getmək pis olmazdı. Onsuz da ömür qısadır, problemlərlə onu daha da qısa etməyək!

Elə bilirdim pandemiya insanları silkələyib ayıldacaq. Deyəsən əksinə oldu. Gəlin Allahın verdiyi ömrü ruzi, sağlıq və mehribanlıqla şükr edərək yaşayaq. Aparacağımız da İrayla Gülsümün apardığı sərvətdən fərqli olmayacaq, sadəcə insan kimi yaşamaq lazımdır.

**Esmira ƏLƏKBƏRLİ**

*Marneuli rayonu Qaçağan 2 saylı ictimai məktəbin kimya-biologiya müəllimi*

## QUCAĞINDAKI UŞAĞI OTAQDA AXTARAN ANA



Müasir dövrdə texnologiya geniş inkişaf etmişdir. Bütün dünyada bu texnologiya vasitələrindən istifadə edilir. Bizlər də bu texnologiya istifadəçilərindən biriyik. Hər birimizin evində telefon, kompüter və yaxud televizor vardır.

Zaman keçdikcə texnologiya daha da inkişaf edir. Texnologiyanın inkişafı ilə birlikdə bir çox problemlər də yaranır. Yəni texnologiyanın inkişafı ilə yanaşı onun müsbət və mənfi xüsusiyyətləri də artır. Məsələn, mənfi xüsusiyyəti bu texnologiya vasitələrindən düzgün istifadə edə bilməyən istifadəçilərdir. Buna misal olaraq sosial şəbəkələrdə yayılmış bir çox videoları göstərə bilərik. Bu videolar içərisində insanlar tərəfindən ən çox bəyənilən, bir çoxlarını güldürən bir video yazısı olmuşdur. Videoda başı telefona qarışmış ana körpəsini qucağında tutub. Birdən telefondan başını qaldırıb təşvişlə qucağında tutduğu körpəsini digər otaqlarda axtarmağa başlayır. Həyat yoldaşı onun təlaşlı nə isə axtardığını görüb soruşduqda, ana uşağı axtardığını deyir. Həyat yoldaşı qadına qucağındakı uşağı göstərib gülür.

Yəqin ki, sizlər də bu videoya baxmış olarsınız. Bu videoya baxanların çoxu gülsə də əslində vəziyyət ağlamalıdır. Burada insanlara çatdırmaq istənilən məzmun tamamilə başqadır. Belə ki, texnologiyanın inkişafı ilə birlikdə valideynlərin uşaqlarına qarşı olan məsuliyyətsizliyi, diqqətsizliyi də artır. Uşaqlarına ayıra bildikləri zamanı telefonla məşğul olurlar. Hətta uşaqlarının əllərinə də telefon verirlər. Və yaxud televizor qarşısında əyləşdirirlər. Uşaqları ilə ünsiyyətdə az olduqları üçün də uşaqlar öz ana dilində danışmaqda çətinlik çəkir. Uşaqlar bütün günü telefonda və ya televizorda baxdıqları çizgi filmləri hansı dildə səslənirsə elə o dildə danışmağı öyrənirlər. Buna görə də valideynlər uşaqlarına daha çox vaxt sərf etməlidirlər.

Gələcəkdə texnologiya inkişaf etdikcə bu cür hadisələr baş verəcəkmi? Əlbəttə, texnologiyanın inkişaf etməsi heç də pis deyil. Əksinə texnologiya vasitələrindən düzgün istifadə edərək qarşılaşdığımız bəzi maddi çətinliklərin də öhdəsindən gələ bilərik. Elə texnologiya sözünün mənası yunanca "texno" – "sənət, bacarıq", "logos" - isə "elm" deməkdir.

Belə ki, texnologiya vasitələrindən istifadə etməklə onlayn sistem şəklində özümüz üçün iş qurub gəlir mənbəyi də əldə edə bilərik. Texnologiya inkişaf etdikcə insanın savadı da, dünyagörüşü də inkişaf edir. Buna görə də texnologiyadan düzgün istifadə etməyi bacarmalıyıq.

**Validə Fətullayeva**

*Qardabani 3 saylı ictimai məktəbin 11-ci sinif şagirdi*

## GÖRMƏDİYİMİZ YERLƏRİN CAZİBƏSİ



Niyə öz yaşadığımız, gördüyümüz ölkəmizə yox, heç görmədiyimiz, gedib gəzmədəyimiz, insanlarının necə olduğunu bilmədiyimiz və daxilində nə baş verdiyi haqqında məlumatımız olmadığı, sadəcə olaraq internetdən axtardığımız məlumatlarla yetinərək başqa ölkəyə daha çox üstünlük veririk. Sadəcə olaraq o ölkə haqqında şəkillər bizi cəlb etməyə yetərlidir.

Məsələn, mən Norveçi çox sevirəm, amma ölkədə olmamışam, insanlarını yaxşı tanımıram, mədəniyyəti haqqında geniş məlumata sahib deyiləm, sadəcə ölkənin necə inkişaf etdiyi haqqında araşdırma etmişəm. Bu araşdırma nəticəsində orada insanlara dəyər verildiyini öyrənmişəm.

Norveçi xoşlamağımın bir neçə səbəbi var. Bu ölkədə insanların şəxsi inkişafına çox önəm verilir (bizim ölkədə isə əksinə). Norveçdə ədəbiyyata, yazıçılara, şairlərə çox önəm verilir. Ölkədə iş saatı 6 saatdır və işçilər öz əməkhaqlarını qaydasında alırlar (bizim ölkəldə isə iş saatı 8 saatdır və insanlar əməkhaqlarını yetərincə ala bilmirlər) və ən əsası, ailələrinə vaxt ayıra bilirlər, keyfiyyətli təhsil sisteminə malikdirlər və s. Bu sadalananların bizim ölkəmizdə hansı vəziyyətdə olduğunu hamımız yaxşı bilirik.

Norveç haqqında araşdıraraq əldə etdiyim məlumat bu ölkəni daha çox xoşlamağıma səbəb oldu. Yaxınlarım arasında "niyə yaşadığımız yerə yox, heç görmədiyimiz yerlərə daha çox üstünlük veririk", - deyə kiçik bir sorğu apardım.

Sorğunun nəticəsinə əsasən, görə bilmədiyimiz yerlərin, ölkələrin cazibəsi bizi özünə daha çox çəkir və biz ona çata bilmədikdə o yer bizim üçün daha cazibəli olur. İnsanlar üçün o yerlər ona görə maraqlı olur ki, insanlar o yerlərlə yaxından tanış deyillər, yaxşı və ya pis olduğunu bilmirlər. Hər dəfə gördüyümuz yerlər isə bizim üçün adi gəlir. Yaşadığımız yerdə tələbatımızı ödəyə bilmədikdə və iqtisadi, sosial, mədəni, təhsil baxımından zəif olması, işsizliyin olması bizi yaşadığımız yerdən soyudur, elə buna görə də başqa bir ölkə haqqında eşitdiyimiz və araşdırdığımız məlumatlarla yetinərək o ölkənin mükəmməl olduğunu düşünürük.

**Elnarə Axverdova**

*Kalinin ictimai məktəbinin 11-ci sinif şagirdi*


İCTİMAİ QƏZET yeniyolqazeti@gmail.com / www.yeniyol.ge

# TÜRKDİLLİ XALQLARIN ƏXLAQİ-ESTETİK ALƏMİ

## NƏ VAXTSA AĞI QARADAN SEÇMƏYİN VAXTI GƏLƏCƏK

## (Türk folklorunun estetikası və mənəvi əqidəsi)

Elizbar CAVELİDZE



*(əvvəli ötən sayda)*

Boyu uzun Burla xatunun sarsılmaz xarakteri və böyük döyüş həvəsi barədə bir-iki kəlmə söyləməli olacağam. O, oğlunu axtarmağa və xilas etmək üçün külünglə dağları yerlə-yeksan etməyə, çayları qurutmağa, qoşun toplamağa, düşmənləri doğram-doğram etməyə, oğlundan bir xəbər duyunca belə mübarizə aparmağa hazırdır. Bəli, onun sözləri boşa deyilən sözlər deyildir və aşağıda bunu əməli ilə də təsdiqləyir.

Qazan bunu eşidəndə vahiməyə düşmüş halda oğlunu axtarmağa başladı və kafirlərə Qara Dərbənd dərəsi ağzında vardı. Kafirlər bunu görəndə ürkdülər, hay-küy qopartdılar. Onu tutmaq istədilər. Uruz atasının gəldiyini eşidəndə ona aman verilməsini dilədi və qopuz istədi. Burada ata-oğul arasında qarşılıqlı mahnı ilə deyişmə başlayır. Oğul atasına anladır ki, kafirlər onu da tutmaq və hər ikisini birlikdə məhv etmək istəyirlər. Eyni zamanda xatırladır ki, “Oğul üçün atanın ölməyi ayıb olur”. Buna görə də geri qayıtmasını, ağbirçəkli anasını və bacılarını gözü yaşlı qoymamasını xahiş edir. Əgər o qayıdarsa, xeyirxahlıq hökm sürər və qana boyanmış çaylar saflaşar, atlar qulun, dəvələr köşək verər, qoyun quzu doğar və “Sən əsən ol, anam əsən olsun. Məndən yegrək Qadir sizə oğul verə”, - dedi. Lakin ata rədd cavabı verir, onu itirdiyinə görə, qoşunda baş verəcək fəlakətdən danışır və həm də vurğulayır: “Qaytabanlar qarısa, kürüm verməz. Qaraquclar qarısa, qulun verməz. Ər yigitlər qarısa, oğlı doğmaz. Baban qarı, anan qarı, səndən yegrək Qadir bizə oğul verməz” - dedi. Belə ki, “Asmanlu gögdə qara bulut oluban kafirin üzərinə gurlayayım. Ağ yıldırım olup şaqıyayım. Kafiri qamış kibi od oluban yandırayım” - dedi. Belə də etdi. Kafirlərə qarşı şiddətli hücuma keçdi, lakin sonda onu yaraladılar, qara qan şorladı və Qazan da dik bir yerə yollandı.

Lakin boyu uzun Burla xatun rahatlıq tapa bilmir, qılıncı belinə qurşadı, qırx incə belli qızla yola düzəldi və Qazanın olduğu yerə çatdı. Qazan öz arvadını tanıya bilmir və igid olaraq bilir. Burla xatun belə deyir: “Qarşım ala, yigit, məni nə mənlərsən? Keçmiş mənim günümi nə andırarsan? Qalqubanı yerindən duran Qazan! Qaragöz atın belinə yatan Qazan! İlğıyuban qara dağım yıqan Qazan! Kölgəsicə qaba ağacım kəsən Qazan! Bıçaq alub, qanadlarım qıran Qazan! Yalnuzca oğlum Uruza qıyan Qazan! At üstində əglənməyüb yortan, Qazan, sənin belin olmuş. Üzəngiyə dərmiyən dizin olmuş, Xan qızı halalını tanımayan gözün olmuş! Bunalmışsan, sana nolmuş? Çal qılıcın, yetdim, Qazan!” - dedi.

Bu epizodda Boyu uzun Burla xatun fədakar, ləyaqətli bir ana kimi bizə təqdim olunur ki, həmçinin qəhrəmandır, döyüşçüdür. Oğuz bəylərinin savaşında onun tayı-bərabəri yoxdur və oğlunu xilas etmək üçün pələng kimi mübarizəyə atılır. Belə ki, yenə də təkrar edirəm, qədim oğuzların qızlarının gözəlliyi yalnız onların incəbelliyi ilə və boyunun uzun olması ilə deyil, eləcə də onların fiziki gücü ilə və savaş qabiliyyəti ilə müəyyən edilir. Fiziki qüvvə də gözəlləşdirəndə qadın, xatun dolğun, gözəl və qəşəng olur. Bu o deməkdir ki, estetik-əxlaqi səviyyədə fiziki qüvvə və döyüş bacarıcı gözəlliyin dolğunlaşdırılmasının komponentlərindən biridir.

Növbəti epizodda Oğuz bəylərinin gəlişi və onların xüsusiyyətləri verilib, bunu da ki, artıq yuxarıda müzakirə etdim və bir daha təkrarlamayacağam. Həmçinin elə burada ənənəvi döyüş mənzərəsi təsvir olunmuşdur ki, burada da yenə kafirlərin qara aləmini qılıncla bölən və yerə salan Burla xatunun qəhrəmancasına döyüşən ideal xanım siması özünü büruzə vermişdir.

Bu boyun sonu da xeyirlə bitir. Pislik aradan götürülüb, xeyirxahlıq qalib gəlir, Dədə Qorqud gələrək şadlıq edir. Bu oğuznaməni düzübqoşur. Fani dünyanı pisləyir, xana və oğuzlara dua edir.

* * *

İndi beşinci boy – “Duxa Qoca oğlu Dəli Domrul boyu” barədə bir neçə söz deyək. Burada verilən bir quru çay üzərində bir körpü saldıran, üzərindən keçənlərdən 35 aqça alan, keçməyəndən də döyə-döyə qırx aqça da alan Dəli Domrulun hadisəsidir. Ondan soruşanda niyə belə edirsən, cavab verərdi: Məndən dəli, məndən güclü heç kim yoxdur, əgər varsa, çıxsın mənimlə savaşsın.

Bir dəfə də körpünün yamacında bir bölük naməlum adamlar çadır qurdular və onların layiqli igidi ölmüşdü və ucadan ağlayırdılar. Dəli Domrul soruşanda ki, sizin igidi kim öldürüb. Onlar cavab verirlər ki, Allahın al qanadlı Əzraili onun canını aldı. Dəli Domrul Allahdan xahiş edir ki, o Əzraili göstərsin, savaşım, məğlub edim, o igidin canını qurtarım. Tanrıya onun sözləri xoş gəlmədi və Əzrailə dedi, get, o dəli pozğunun gözünə görün, bənizini saralt, canını al.

Bundan sonra Əzrail ilə Dəli Domrulun görüşü gəlir. Nəhayət, qorxmuş, vahiməyə düşmüş Dəli Əzrailə yalvarır, canımı alma deyir. O isə cavab verir ki, canı verən də, canı alan da yalnız uca Allahdır. Bunu eşidən Dəli Domrul Allaha fəryad edir:

***“Yucalardan yucasan,***
***Kimsə bilməz necəsən.***
***Görklü Tanrı,***
***Neçə cahillər səni gögdə arar, yerdə istər.***
***Sən xud möminlər könlindəsən.***
***Daim duran cabbar Tanrı,***
***Baqi qalan səttar Tanrı,***
***Mənim canımı alur olsan,***
***sən alğıl!***
***Əzrayilə almağa qoymağıl! – dedi”*** *(D.D.K., səh. 109; D.D.K., səh. 81; O.D.D.K.K., səh. 128).*

Təsdiq və inkar forması ilə Tanrının bu obrazı islam təlimində daha geniş yayılmışdır. Tanrının möminin ürəyində onun bərqərar olunması isə sufi təlimində xüsusilə qəbul olunmuşdur.

Qısası, bu müraciətdən sonra Tanrı Əzrailə səda göndərdi, çünki Domrul onun birliyini tanıdı, öz canı yerinə başqa can tapmalı və onun canına yaxın gəlməməlidir.

Dəli Domrul əvvəlcə öz atasından can istədi, lakin ata cavab verir ki, hər şey verərəm, lakin canımı qıya bilmərəm. Sonra anasına üz tutur, ana da eyni şeyi deyir ki, dünya şirin, can əziz, canımı qıya bilmərəm. Sonra o yad qızı olan həyat yoldaşına üz tutur. Bu sonuncu isə belə cavab verir:

***“...Səndən sonra bir yigidi sevib varsam,***
***bilə yatsam,***
***Ala yılan olub, məni soqsun!***
***Sənin ol müxənnət anan-baban***
***Bir canda nə var ki, sana qıymamışlar?***
***Ərş tanığ olsun, kürsi tanığ olsun,***
***Yer tanığ olsun, göğ tanığ olsun,***
***Qadir Tanrı tanığ olsun,***
***Mənim canım sənin canına qurban olsun, - dedi, razı oldı”*** *(D.D.K., səh. 121-122).*

Həyat yoldaşının fədakarlığından və sədaqətliliyindən vəcdə gəlmiş Domrul Tanrıya yalvarır: “Alursan, ikimüzün canın bilə alğıl! Qorsan, ikimüzün canın bilə qoğil! Kərəmi çoq Qadir Tanrı!” - dedi. Tanrı da onun yalvarışını eşitdi və Əzrailə onun valideynlərinin canını almağı həvalə etdi, Dəli Domrul isə həyat yoldaşı ilə yüz qırx il yaşadı.

Bu boy da belə sona yetir. Müəyyən olunur ki, aşiqlik rifahını öz həyatlarından daha yüksəkdə tutanda valideyn sevgisindən ər-arvad sədaqəti, onların qarşılıqlı həqiqi sevgisi daha yüksəkdə dayanır ki, bu da Orta əsrlərin qəhrəmanlıq eposu üçün adi və tipik hal idi.

Yuxarıda müzakirə olunan boy ilə Dədə Qorqud eposunun ümumi və özünün qəhrəmanlıq mənəvi axınını yaratdığı semantiklə və süjetlə sxematik çərçivədən kənara çıxmışdır. Birincisi, burada, ümumiyyətlə, oğuzların vüqarlı cəngavərləri xatırlanmamış, oğuzların möhkəm ənənələri, ata-oğul, ana-oğul arasında möhkəm formalaşmış qarşılıqlı hörmət və məhəbbət inkar edilmiş, igidlik və qəhrəmanlıq savaşlarının kölgəsi belə göz qabağına gəlmir. Burada yürüdülən əsas fikir odur ki, yad tayfanın qızı olan, ərinə sədaqəti ilə, canını qurban verməklə təkcə ərinə deyil, eləcə də Tanrının özünə xoş gətdiyi həyat yoldaşı valideyndən daha artıq sədaqətlidir. Bu sonuncu isə bu sədaqətlilik və canını qurban vermək səbəbi ilə Dəli Domrula və onun həyat yoldaşına uzun ömür bəxş edir, ataananın isə ömrünü gödəldir. Bu cür baxış dairəsi oğuzlar üçün, deyildiyi kimi, məqbul deyildir. Bu boyun baş qəhrəmanı Dəli (gic) Domrul da məqbul deyildir. Bütün yuxarıda deyilənlər şəxsən məni düşündürür ki, bu boy Tanrı ilə Əzrailin əlaqələrini verdiyinə, Tanrının məğzi və məkanı barədə maraqlı məlumar verməsinə baxmayaraq sonralar eposa daxil edilmişdir.

*(davamı gələn sayda)*

**Gürcü dilindən tərcümə edən:**
**Mirzə MƏMMƏDOĞLU**

# NİDERLAND – PƏRDƏ ARXASINDAKI GERÇƏKLƏR

## SOSİUM

### 15. BODİART AVROPANIN FƏRQLİ GÖRÜNTÜSÜ KİMİ



*(əvvəli ötən sayda)*

İnsanların ətrafdakılardan fərqlənmək üçün müxtəlif yöntəmlərə əl atdıqlarını, öz bacarıqlarını, qabiliyyətlərini inkişaf etdirmək üçün çalışdıqlarını, bütün bunlar üçün modanın, texnologiyanın, elmin, sənətin imkanlarından yararlandıqlarını, öz həyatlarına tətbiq etdiklərini söyləyə bilərik. Bəşər tarixinin müxtəlif dönəmlərində insanın belə istəyinin olmasını da bunun üstünə əlavə etsək, onda başqalarından fərqlənmək üçün onun hərəkətlərinin fasiləsiz, davamlı olduğunu da səsləndirə bilərik. Hər dövrün öz fərqlənmək yöntəminin olması, hər dövrün buna uyğun öz dəbinin meydana çıxması da danılmazdır. Demirikmi, hər aşiqin öz dövranı var, bu məntiq burada da işə yarayır. Hər bir insan öz dövrünün, öz zamanının oğludur. Hər dövr insanı öz rəngi ilə boyayır, öz havası ilə qızdırır. Fərqli coğrafiyalarda yaşayan insanların bu baxımdan fərqli olması da təbiidir. Coğrafiya da insanın biçimlənməsində sakit dayanmır. Yaşadığı cəmiyyətin abu-havası, adət-ənənəsi, düşüncə tərzi də insanın fərqlənməsinə öz təsirini göstərir. Bəzən bu fərqliliyin yeni şəkil almasında kənar, yad təsirlər də az-çox rol oynayır. Qloballaşan dünyada sənin-mənim prinsipinin sərhədlərinin sürətlə pozulması mədəniyyətlərin bir-birinə təsirini daha da sürətləndirir, hər şey bir-birinə qaynayıb-qarışır, insanlar fərqli, dəyişik mənzərələrlə üzləşir və bütün bunlardan təsirlənə bilirlər. İndi söhbətin yönünü dəyişib əsas mövzunun üzərinə gətirmək olar, bu qədər giriş vermək yetər.

İnsanın öz bədəni üzərində müxtəlif əməliyyatlar yolu ilə dəyişiklik yaradaraq, fərqlənmək istəyi kökü tarixin dərinliklərinə gedib çıxan yeni bir incəsənət sahəsinin – bədən incəsənətinin və ya sənətşünaslıqda bodiart adlandırılan bir cərəyanın yaranmasına gətirib çıxarmışdır.

İnsanın fərqli görünmək üçün əl atdığı üsullardan biri də bədəninin müxtəlif yerlərinə cürbəcür döymələr etdirməsidir. Bu bodiartın ən geniş yayılan formasıdır. Döymə və ya tatu fərqləndirmə nişanıdır. Qəbilədə insanları bir-birindən fərqləndirən işarə kimi çıxış edirdi. Hər qəbilənin də fərqli döyməsi, tatusu olurdu. Qəbilələr bir-birini bu işarələrə görə tanıyırdılar, dostlarını-düşmənlərini fərqləndirə bilirdilər. Belə də deyə bilərik, ilkin dönəmlərdə tatu insanı tanıdan sənəd-bəlgə rolunu oynayırdı. Tatular adətən bədənin görünən bir yerində, əsasən də sifətdə həkk edilirdi. Belə döymələr müəyyən bir fikri ifadə edən şəkillər idi. Hər bir insan mənsub olduğu toplumun dəyər verdiyi nəsnələrin sxematik işarələrini, həmin topluma aid rəmzləri daşıyırdı. Tatu sahibi olmaq, onu bədəninə döydürmək şəxsin qəbilədə statusunun dəyişməsinə gətirib çıxarırdı. Tatu daşımaqla uşaqlıqdan yeniyetməliyə keçid baş tuturdu. Tatusunu almış şəxs qəbilənin bütün işlərinin həllində vacib səsə malik olurdu. O, yetkin əsgərə çevrilirdi. Silah gəzdirmək hüququ qazanırdı. Tatunun vurulması xüsusi bir mərasimlə icra olunurdu. Qəbilənin yetkin adamlarının xeyir-duası ilə, onların iştirakı ilə keçirilən bir mərasim idi. Tatu daşımağa iddialı olan, buna hazır olduğunu bildirən gənc bu ağrılı prosesin onun bədənində icrasına səsini çıxarmadan dözməli idi. Başqa cür ola da bilməzdi. Tatunun fərqləndirici bir nişan, işarə olduğunu dünyanın bir sıra xalqları, ən çox da Afrika xalqları bu gün də yaşatmaqdadırlar.

Tarixən tatudan bir fərqləndirici nişan kimi dənizçilərin, dəniz quldurlarının da istifadə etdikləri bəliddir. Sovet məkanında tatudan həbsxanalarda, özünü oğru dünyasının üzvü hesab edən adamların istifadə etdiyinə də sıx-sıx rast gəlinirdi. Sovet əsgərlərinin də, adi adamların da arasıra döymələrdən yararlandığını görmək olardı. Sevdiyi heyvanın, mistik varlığın kiçik ölçülü şəkillərini, sevdiklərinin adını yazdıranlar da az deyildi. Yaxın keçmişə qədər tatular öz kiçiklikləri ilə, nəzərə az çarpmaqları ilə fərqlənirdi.

Zamanın sürəti bu sahədən də yan keçməmiş, tatu özünün başgicəlləndirici inkişaf dövrünə qədəm qoymuşdur. Artıq o, özünün geniş tətbiqi dövrünü yaşamaqdadır. Tatu özünün keçmiş mistik anlamından, gerçək mahiyyətindən uzaqlaşaraq, incəsənət dəyəri qazanmışdır. Sanki bu gen dünya insana darlıq etmiş, rəssamlıq fantaziyasını gerçəkləşdirmək üçün bir vasitə tapa bilmirmiş kimi, bədənindən bir lövhə, bir müstəvi kimi istifadə etməyə qərar vermişdir. Artıq bodiart dünyada milyonlarla insanın bədəninə öz damğasını vurmaqda, minlərlə insanın isə dolanışıq mənbəyinə çevrilməkdədir. Bədənini bu incəsənətin nailiyyətləri ilə süsləmək istəyənlərin sayı isə günü-gündən artmaqdadır. Tatu salonlarında çalışanların çörəyi də bu yolla bollaşmaqdadır.

Döymə sənəti müasir dövrdə özünün ikinci ömrünü, daha yetkin çağını yaşamaqdadır. Avropa, o sıradan da Niderland bodiartın hər addımda özünü göstərdiyi ən geniş meydandır. Liberal dəyərlərin, fərdiyyətçiliyin üstünlük təşkil etdiyi Avropada tatunun yayılmasını əngəlləyəcək, ona qarşı çıxacaq bir güc də yox. Qanunla qadağan edilmir, dini normalara tatusevərlərin məhəl qoyacaqlarını düşünməksə sadəlövhlükdən başqa bir şey deyil. Cəmiyyətin ona tolerant münasibəti göz qabağındadır. Bizim "dərə xəlvət, tülkü bəy" məsəlimiz elə bu məqam üçün də keçərlidir. Düzgün anlaşılsın deyə, dərənin Avropanı, tülkünün də tatunu nəzərdə tutduğunu söyləməsəm olmaz.

Tatu incəsənətinin varlığını göstərən bəzi məqamları açıqlığa qovuşdurmağa çalışım. Mən xırdalayım, siz də "hə-yoxunuzu" söyləyin. Niderlandda bədənindəki tatunu nümayiş etdirən gənc və orta yaşlı insanlar istənilən qədərdir. Hərə öz zövqünə görə bədəninin müxtəlif yerlərinə tatu döydürür. Demirlərmi zövqlər müxtəlifdir, bu tatuşünaslıqda da keçərlidir. Bilmirəm bu tatuşünaslıq terminim yerinə düşdümü, ya yox? Tatular ölçüsünə görə də bir-birindən fərqlənir. Miniatür tatulardan tutmuş bədənin böyük hissəsini, hətta bütün bədəni zəbt edən tatulara rast gəlmək mümkündür. Kimi qoluna, kimi boynuna, kimi üzünə kiçik mini tatular yapdırır. Kimi də canından bezmiş kimi, məsələn, bütün kürəyinə və ya sinəsinə, hər iki aşağı ətrafına, qollarının hər ikisinə tatu ilə bəzək vurur. Bəzilərinin hətta ürəyi bunlarla da soyumur, saçını ülgüclə sıfırlayıb bütöv bədənini tatu tablosuna döndərir. Deməsi ayıb olsa da, bəziləri gündəyməzinə, intim yerlərinə də tatu naxışları düzdürür. Əlahəzrət zövq burada da özünü göstərir.

Tatular mövzusuna görə də bir-birindən fərqlənir. Ən sadə tatulardan ən mürəkkəb, ən mücərrəd rəsmlərə qədər dəyişən mənzərələri müşahidə etmək mümkündür. Zövqün hər yerdə özünü hiss etdirdiyini yaddan çıxarmayaq. Sevdiyi bitkinin, gülün-çiçəyin, quşun, heyvanın bütöv və qismən təsvirini, mistik-əsatiri varlıqların həyatından hər hansı bir epizodu, sevimli futbol komandasının emblemini, postmodernist, futuristik hansısa bir elementi və ya bir neçə sözün kombinasiyasından ibarət devizi bədənlərinə yaraşdıranlar kifayət qədərdir. Başdan ayağa tatu ilə süslənənlərin qorxu filmlərinin həyatdakı canlı prototipləri olmalarını, nağıl və əsatirlərin qorxunc personajlarının yeni həyat qazandıqlarını düşünməkdən özümü saxlaya bilmirəm. Qaranlıq yerdə qəfildən qarşısına belə bir tatusevərin çıxması ilə nabələd adamın eymənməsi, ən azından həyacanlanması mümkündür. Bunu mənim düşüncəm sayıb, üstündən keçə də bilərsiniz.

Bodiartın fəaliyyət sahəsi bununla bitmir. Dövrəyə bədən incəsənətinin başqa janrı girir. Pirsinq. Metal kürələrin, halqaların, iynələrin bədənin müxtəlif yerlərinə deşilərək, keçirilməsi üsulu pirsinq adlanır. Dilinə, dodağına, qulağına, çənəsinə, göbəyinə, hətta ayıb yerinə belə müxtəlif sayda, müxtəlif böyüklükdə metal fiqurlar keçirənlər, buna görə cəmiyyət tərəfindən qınanmayan yüzlərlə adamla rastlaşa bilərsiniz. Bəyənsən də, bəyənməsən də bu yerlərin həyat tərzi belədir. Artıq pirsinqin biz tərəflərə də ayaq açdığı sezilməkdədir. Yaxşı bir şey olsa mənimsəməzdik. Nə etməli? Dünya qloballaşır, yaxşısını-pisini təcrübə etməliyik.

Bodiartın müxtəlif təzahür formaları var. Yəni insan bədənini sənət üçün bir vasitə seçən bodiart ona müxtəlif yöndən yanaşır. İnsan bədəni üzərində bodiart müxtəlif yollarla ifadəsini tapır. Get-gedə bu sənətin yeni janrları meydana çıxır. Mən bunların hamısını burada sadalamaq fikrindən də uzağam. İstəmirəm ki, oğru yadına daş salmış olum, bu sətirləri oxuyanları bodiarta təşviq edim. Sevmədiyim bədən incəsənəti adlandırılan bodiartın bizim mədəniyyətimizə daxil olmasını birmənalı şəkildə istəmirəm. Özümü nə qədər açıq fikirli adam hesab etsəm də, ikrah doğuran bu sənətin əleyhinəyəm. Qoy buna görə məni qınasınlar. Özlərini fərqli göstərmək üçün bodiartın bu və ya digər janrından istifadə edənlərin bir çoxunun sonradan sağalmaz xəstəliklərə düçar olmasını, üz-gözlərinin əcaib-qorxunc görkəm almasını da xatırlatmasam olmaz. Bədənini belə bir eksperməntə təslim edən adamın bunu yaddan çıxarmaması çox vacibdir.

Saçların göyqurşağına döndərilməsi də bodiartın oyun meydanlarından biridir. Bu janrdan yararlanmaq ən çox qadınların əlindədir. Ancaq bəzi hallarda kişilərin də istifadə etdiyi görünür. Saçlarına tovuzquşu əlvanlığı qazandıran, ikirəngli və işıqforun üç rəngini özündə birləşdirən, hətta göyqurşağının bütün boyalarını saçına-başına yaxan adamların kloun görünüşü bəzən kefimi açırdı. Məmnunluqla güldüyüm də olurdu. Nədən ki, belə dəyişik mənzərə biz tərəflərdə yox dərəcəsindədir, nadir görünən təbiət hadisəsi kimi bir şeydir, hər deyən onu müşahidə edə bilmirik. Avropada isə bunu bir-birini əvəz edən kino kadrları kimi hər vaxt görmək imkanım olurdu. Niderlandın vətəndaşları arasında Afrika mənşəlilərə də tez-tez rast gəlmək olur. Burada Surinam əsillilər daha çoxdur. Saçından küknar-şam qozalarına bənzəyən müxtəlif fiqurlar düzəldən, bəzən eninə-uzununa cığırlar açıb başını şahmat taxtasına bənzədən zənci qadınları görmək də mənə xoş anlar bəxş edirdi. Adamların pişik quyruğu ilə oynayan sayaq oturub-durub saçlarını oyuncaq etməsini anlamaq mənim sahəmə yaddır.

Bodiartın daha təhlükəli növlərinin olduğu da faktdır. Bədənin dərisini, hətta ətini kəsərək, onu yenidən şəkilləndirməklə, yeni forma verməklə əldə edilən görüntülərin necə fərqlilik yaratdığını, baxanlara hansı estetik gözəllik verdiyini bir kənara qoyuram. İnsan bədənini təbiilikdən çıxaran, mənə görə, hətta iyrənc hala salan bodiartın insan həyatı üçün təhlükə mənbəyindən başqa bir işə yaramadığını söyləyərək, bu bölümü nöqtələyirəm.

*(davamı gələn sayda)*

**Afiq MUXTAROĞLU**

Niderland

Qəzet 17 iyun 2015-ci il tarixindən nəşr olunur.

Yeni YOL

15 İYUN
2022-Cİ İL
№ 011 (158)

İCTİMAİ QƏZET yeniyolqazeti@gmail.com ❁ “იენი იოლი” საზოგადოებრივი გაზეთი ❁ HAQQIN SÖZÜ – SÖZÜN HAQQI

# MÜƏLLİMLƏR ÜÇÜN ŞAHMAT TƏLİMLƏRİ VƏ İMTAHANLARI BAŞLAYIB




Müəllimlərin Peşə İnkişafı üzrə Milli Mərkəzinin təlimlər proqramının nümayəndələri Dünya Şahmat Federasiyası və Milli Şahmat Federasiyası rəhbərləri ilə birgə təlim prosesinin monitorinqi məqsədi ilə məktəb müəllimləri ilə iş görüşü keçiriblər.

Mərkəzin himayəsi ilə 2022-ci ilin 1 iyunundan “Müəllimlər üçün başlanğıc pillədə şahmatın tədrisinin aktual məsələləri” treninq modulu ilə təlimlər başlayıb və təlimlər 10 sentyabra qədər davam edəcək.

Ölkə miqyasında 4000-ə yaxın müəllim hazırlıqdan keçəcək. Təlimləri şahmat ustadları, dünya və Olimpiya çempionları keçirlər.

Müəllimlər hazırlıq kursunu başa vurduqdan sonra yekun imtahan verəcəklər. Həmin imtahandan uğurla keçdikdən sonra müəllimlərə sertifikat veriləcək və onlar şahmatı tədris etmək hüququ əldə edəcəklər.

İmtahan barədə müəllimlər artıq məlumatlı ola bilərlər. Ancaq Təhsil Nazirliyindən “etaloni.ge”yə bildiriblər ki, müəllimlər imtahan haqqında məlumatlı deyil. Müəllimlər Evi isə cavab verməkdən çəkinib. Ancaq Şahmat Federasiyasından ətraflı məlumat verilib və təlim keçdikdən sonra müəllimlərin test imtahanı verəcələrini də təsdiq ediblər: “Müəllimlər təlimləri keçdikdən sonra test imtahanı verəcəklər. Başqa cür sertifikat ala bilməzlər. Əgər imtahanı verə bilməsələr o zaman direktor Müəllimlər Evinə müraciət etməlidir və müəllimlər yenidən təlimlər keçməli, imtahan verməlidirlər”.

Qeyd edək ki, Gürcüstanın təhsil və elm naziri Mixeil Çxenkelinin qərarına əsasən, şagirdlərin analitik, məntiqi və tənqidi fikirlərinin formalaşması məqsədilə 2022-2023-cü tədris ilindən şahmat ümumi təhsilin başlanğıc pilləsinin birinci sinfində məcburi fənn olaraq tədris olunacaq.

Orta məktəblərdə şahmatın tədrisi Avropa İttifaqının 2012-ci il bəyannaməsi ilə nəzərdə tutulub.

*Mənbə: etaloni.ge*

# MÜƏLLİMLƏRİN BİR QİSMİ MƏZUNİYYƏT ZAMANI ƏMƏKHAQQI ALMAYACAQLAR



Attestatsız müəllimlərin bir qismi yay məzuniyyətini maaşsız keçirəcəklər. Məlum olduğu kimi, məktəbdə işlə təmin edilmiş attestatsız müəllimlərin əmək müqavilələsinin müddəti 1 iyula qədərdir. Bu o deməkdir ki, onlar avqustdan məktəb əməkdaşı hesab edilməyəcəklər. Ona görə də onlara məzuniyyət maaşı verilməyəcək.

“Attestatsız müəllimlərə niyə əməkhaqqı düşmür, başa düşmürəm. Sentyabrdan məktəbdə dərs deyirəm, yanvardan sonra maaşımı azaldıblar. Məktəb 1 iyula qədər məni müqavilə əsasında işə götürüb, indi isə deyirlər ki, əgər imtahanı 4 və ya 7 kreditlə versəm, sentyabrdan müqaviləni yenə davam etdirəcəklər”, - deyə adının qeyd edilməsini istəməyən müəllim “etaloni.ge”yə bildirib.

*Mənbə: etaloni.ge*

# ATTESTATLARIN VERİLƏCƏYİ VAXT MƏLUMDUR




2021-2022-ci tədris ili məzunlarının attestatlarının verilmə tarixi məlum olub.

Məzunlar attestatlarını cari ilin 20 iyunundan ala biləcəklər. Bunun üçün Dövlət Xidməti İnkişafı Agentliyinin istənilən ərazi xidmətinə, ictimai mərkəzlərə və ya Ədliyyə Evinin filiallarına müraciət etmək lazımdır.

Dövlət Xidməti İnkişafı Agentliyi ümumi təhsili təsdiq edən dövlət sənədinin dublikatını Təhsilin İdarəsi üzrə Məlumat Sisteminin yaratdığı elektron məlumat bazası əsasında verir.

# DAŞBAŞ KANYONU ÜZƏRİNDƏKİ ŞÜŞƏ KÖRPÜNÜN AÇILIŞI OLUB



Kvemo-Kartli bölgəsinin Tsalka rayonunda Daşbaş kanyonu üzərində 240 metrlik şüşə körpünün açılışı olub. Mərasimdə Baş nazir İrakli Qaribaşvili, ətraf mühitin mühafizəsi və kənd təsərrüfatı naziri Otar Şamuqia və digər rəsmi şəxslər iştirak ediblər.

Hökumət başçısı bildirib ki, İsrailin “Kass Land” şirkəti layihənin reallaşdırılmasına 120 milyon lari investisiya yatırıb və 250 iş yeri yaradılıb. O qeyd edib ki, körpünün istifadəyə verilməsi kanyon ətrafında turizm xidmətlərinin inkişafına təkan verəcək.

Körpünü unikal edən orta hissəsində 200 metr hündürlükdə yerləşən brilyant formasında asma şüşəli kafe-bardır. “Kass Land” şirkətinin baş direktoru Eka Tordia bildirib ki, obyekt Ginnesin Rekordlar Kitabına ən yüksək asma restoran kimi daxil ola bilər.

Qeyri-adi məkanın ziyarətçilərini gözəl təbiət mənzərələri, kaskadlı şəlalələrə aparan cığırlar və kotteclər gözləyir.

Turizm kompleksi ziyarətçiləri iyunun 15-dən ödəniş əsasında qəbul edəcək.

# GÜRCÜSTAN POLŞA İLƏ BİRGƏ PUA İSTEHSAL EDƏCƏK



Gürcüstanın müdafiə naziri Cuanşer Burçuladze parlamentdə illik hesabatla çıxışı zamanı bildirib ki, Gürcüstan Polşa ilə birgə pilotsuz uçuş aparatları istehsal edəcək.

Onun sözlərinə görə, yaradılmış Gürcüstan-Polşa birgə müəssisəsi qırıcı və kəşfiyyat PUA-larının istehsalını həyata keçirəcək.

Nazir müəssisənin müasir texnologiyalarla təchiz ediləcəyini, nəzdində təlim mərkəzinin də yaradılacağını deyib.

C.Burçuladze qeyd edib ki, ilin sonunadək “Delta Vebe” şirkəti Gürcüstan istehsalı olan PUA-lar buraxacaq.

Təsisçi:
“Gürcüstan Gənclərinə Yardım və Maarifləndirmə Təşkilatı”

Redaktor:
Azər MUSAOĞLU
Yayım direktoru:
Hacı BƏKİROĞLU
Qrafik dizayn:
Elsevər ƏHMƏDOV

ÜNVAN: Qardabani şəh., Kolxoz küç. 4
TEL: (+995) 555 96 18 68
599 54 12 92
EMAİL: yeniyolqazeti@gmail.com

Redaksiyaya gələn əlyazmalar geri qaytarılmır və onlara rəy verilmir. Müəlliflə redaksiyanın mövqeyi müxtəlif ola bilər. Qəzet hələlik ictimai əsaslarla yayımlanır və pulsuz paylanır. Qəzetdə müxtəlif informasiya agentliklərinin xəbərlərindən də istifadə olunur.